# 1 Yaşayış tarixi

**Həzrətin mübarək künyəsi Əbul-həsən və məşhur ləqəbi Allah**

**tərəfindən o Həzrətin təvəllüdündən qabaq əcdadına deyilmişRza ləqəbidir.**

**Həzrətin mübarək adı Əlidir. Atası İmam Musa bin Cəfərdir. (ə.s)**

**Həzrətin anası Nəcmə xanım, öz əsrinin pak xanımlarından olmuşdur.**

**Həzrətin doğum yeri Mədinədir. (Peyğəmbərin şəhəri)**

**O Həzrətin Həzrət Muhəmməd Təqi(ə.s) adında bir övladı olub.**

**Əlbəttə başqa övladlarının olub olmaması barəsində tarixçilər arasında fikir ayrılığı var.**

## 2 Doğum tarixi

**Tarixçilər və hədis yazanlar o Həzrətin doğumunun 148-ci h.q. tarixi ilə zilqədə ayının 11-ə**

**yazıblar və bu İmam Sadiqin(ə.s) dünyadan köçdüyü tarixdir. Amma bəzi**

**tarixçilər o Həzrətin doğumunun İmam Sadiqin(ə.s) vəfatından beş il sonra yazıblar.**

**OHəzrətin anası onudünyaya gətirəndən sonra Tahirə - Pakizə adı almışdır.**

**O xanım çox iffətli, düşüncəli və şərəfli əcəm (qeyri ərəb) ailəsindən olmuşdur. Bir hədisdə deyilir:**

**Həzrətin anası Tuktəm xanım dedi: Mənim üçün dayə tutun. (İmama süd verməkdə kömək**

**etsin) Soruşdular: Süd azdır? Dedi: Xeyr! Həzrətin doğumundan sonra müstəhəbb zikr edib,**

**namaz qıla bilmirəm.**

## 3 İmam Rzanın(ə.s) insanlarla gözəl əxlaq və ədəblə davranışı

**Nəql olunub ki, İmam Rza (ə.s) camaatın yanına gedən zaman özünü səliqəyə salıb**

**gedərdi və camaatın içinə çıxanda özünə ətir vurardı.**

**Insanlarla danışanda heçkəsi sözü ilə narahat etməzdi. Hətta heçkəsin sözünü kəsməzdi və**

**öz sözün tamamlayardı.Həmçinin bacardığı qədər kimsənin istəyini rədd etməzdi. O Həzrət**

**heç vaxt qəh-qəhə çəkib gülməzdi,  həmişə Həzrət təbəssümlə gülərdi.**

**İmam Rza (ə.s) insanlara çox kömək edərdi, sədəqə verərdi və bu işləri çox zaman**

**gecə qaranlığında yerinə yetirərdi.**

**Həzrət çox təvazökar idi. Hədisdə buyurulur:Birgün Həzrət hamamda olarkən bir kişi ona dedi:**

**Mənə kisə çək!Həzrət başladı ona kisə çəkməyə. Camaatona Həzrəti tanıtdırdılar və o**

**çox xəcalət çəkib üzr istədi. Amma Həzrət onun ürəyini ala-ala ona kisə çəkməyi davam etdi.**

**Həmçinin İmam Rza (ə.s) öz qonaqlarına çox ehtiram bəsləyərdi. Başqa bir hədisdə nəql olunub: Bir**

**gün Həzrətin yanına bir qonaq gəlir və gecəyə qədər Həzrətin yanında qalır. Bu zaman evin**

**işığı xarab olur və o kişi işığı düzəltmək istəyəndə Həzrət onu qoymadı. Özü işığı düzəldib buyurdu:**

**Biz heç vaxt qonağımızı işlətmərik.**

## 4Həzrətin ömrünün müddəti

**Məşhur tarixlərə əsasənHəzrətin mübarək ömrü 55 il olub və Həzrətin şəhadət tarixi**

**203-ci h.q. ilinin səfər ayının axırı nəql olunub.**

**Həzrətin qatili məşhur rəvayətlərə görə Məmun Abbasidir.**

**İmamın pak məzarı dünyada şöhrət tapan müqəddəs Məşhəd şəhərindədir.**

## 5Həzrət Rzanın (ə.s) cavanlıqda dini mərcəiyyəti

**Cavanlıqda Həzrət yüksək elmi dərəcəyə malik idi. Camaat o Həzrətə müraciət edib**

**məsələləri soruşardılar. Həzrət Kazım (ə.s)camaatı ona istiqamətləndirib**

**buyurardı: Bu oğlumun yazdığı mənim yazdığımdır, onun sözü mənim sözümdür, onun**

**göndərdiyi mənim göndərdiyimdir və nə desə haqdır.**

**Birgün bir şəxs Həzrət Kazıma(ə.s) dedi: Sualım var.Həzrət buyurdu: Öz**

**İmamından soruş. Soruşdu: Məqsədin kimdir?**

**Mən sizdən başqa bir İmam tanımıram!**

**Həzrət buyurdu: O, övladım Əlidir, mən öz künyəm -Əbul-Həsəni ona bağışladım.**

**Alim ibn Həcər deyir: Həzrət Rza (ə.s) iyirmi yaşı olarkən Peyğəmbər**

**(s) məscidində fətva verərdi.**

**Zəhəbi - alimlərdən biri- deyir: Həzrət Rza (ə.s) Malik bin Ənəsin(əhli sunnənin**

**dörd alimlərindən biri) vaxtında cavan olmağına baxmayaraq fətva verərmiş.**

## 6Həzrətin uşaqlıq və cavanlıq dövrü

**Tarix Məsum İmamların uşaqlıq dövrünün xüsusiyyətləri barəsində susaraq çox məlumat**

**verməyib. Çünki tarixçilər tarix səhnəsində səs-küyə səbəb olan hadisələri və insanlar**

**arasında çox fərqlənmək istəyən şəxsləri axtarırlar.**
**Məsum İmamlar şan-şöhrət qarşısında iddiasız olan, yaşadıqları cəmiyyətdə sadə insanlardan**

**fərqlənməyən ən ali şəxslər olmuşlar. Hökumət hər zaman onları məhrum vəziyyətdə saxlayaraq,**

**insanların onlarla əlaqəsinə çətinlik yaradıb. Həmçinin o zamanın bir sıra İslam alimləri məzhəbi**

**ixtilafları olduğu üçün İmamları insanların gözündə kiçiltmək, sözlərini dəyərsiz etmək üçün hər**

**vasitədən istifadə etmişlər. Belə insanlar gələcək nəsillərin Məsum İmamların İmamətdən əvvəlki və**

**sonrakı  həyatı haqqında məlumatları əldə etmələrinə mane olmuşlar.**

**Tarixdə qeyd olunub ki, İmam Rzaya (ə.s) uşaqlıqdan atasının məhəbbəti çox olub. Musa bin Cəfərin**

**(ə.s) dostlarından biri Mufəzzəl adlı şəxs deyir: Həzrətin yanına getdim. Gördüm övladı Əli onun**

**qucağındadır. Həzrət onu öpərdi və dilini sovurardı. Onu öz çiyninə qoyardı və özünə sıxıb**

**buyurardı: Atam sənə qurban! Nə gözəl ətrin var. Nə pakizə xilqətin var. Sənin fəzilətin aşkardır.**

**Dedim: Fəda olum sənə, ürəyimdə bu uşağa qarşı bir məhəbbət oyandı ki, səndən başqa heç kimə**

**bu məhəbbət oyanmamışdır.**

**Həzrət buyurdu: Ey Müfəzzəl! Onun mənimlə olan nisbəti mənim atama olan nisbətim kimidir.**

**Dedim: Sizdən sonra Allahın İmamət əmrinə o sahibdir? Buyurdu: Bəli! Hər kim ona itaət etsə**

**haqqa çatmışdır. Hər kim itaət etməsə kafir olar.**

## 7 Həzrətin səxavət və kəraməti

Həzrət öz dövründə səxavət və xeyirxahlıqda yeganə şəxs idi. Ərəfə günündə öz mal-dövlətinin hamısını yoxsullara bağışladı. Fəzl bin Səhl dedi: Bu zərər və xəsarətdir. Həzrət buyurdu: Bir şeylə ki, böyüklük və mükafat əldə edirsən heç vaxt onu ziyan sayma.

Bir gün bir kişi Həzrətə dedi: Öz mürüvvətin qədər mənə əta et. Həzrət buyurdu: Eliyə bilmərəm.

Kişi dedi: Mənim mürüvvətim qədər mənə əta et. Həzrət buyurdu: Bunu eliyə bilərəm. Sonra əmr etdi ki ona iki yüz dinar versinlər.

İslam dinində çox təkid olunmuş işlərdən biri də, möhtacların ehtiyacını, xüsusən dilədikləri zaman təmin etmək məsələsidir.

Möhtaclara xidmət, Quran ayələrində və məsumların buyurduqlarında təkid olunmuş və bu işin fəzilətinə və tərzinə işarə edilmişdir.

İmam Rzanın (ə.s) həyatına qısa baxış insanı bu həqiqət ilə tanış edir. Həzrətin möhtaclara xüsusi xidmət və köməyi var idi.

Muəmmər bin Xəllad deyir: Həzrət Rza (ə.s) yemək yeməyə başlayanda bir qab süfrənin kənarına qoyub, yaxşı yeməklərdən ayırardı və əmr edərdi ki, bunları fəqirlərə versinlər.

## 8 Həzrətin dözümlü və səbirli olması

**Həzrətin dözümlu və səbirli olması Məmunun xəlifəlik dövründə onun gizli və**

**xəyanətli siyasətinin qarşısında, vəliəhdlik zorla boynuna qoyulandan sonra**

**aşkar oldu.**

**Hədis rəvayətçisinin xadimi Yasir deyir: Cümə günü Həzrət məsciddən qayıdan zaman,**
**tər-qan Həzrəti götürmüşdü. Əllərini göyə qaldırıb dedi: İlahi əgər mənim azadlıq**
**və fərəcim ölümdədirsə onda tez yetir, elə bu saat.**

**Bu rəvayətdən məlum olur ki, İmam Rzanın(ə.s)vəliəhdliyi dövründə, Məmun**

**və onun təşkilatının siyasətindən Həzrət nəqədər əzabda olub. Bu kimi acı və narahatedici**

**davranış müqabilindəHəzrət səbr və dözümlə Allahın əmrinə itaət edirdi.**

## 9 İmamın ədaləti

**Nəql olunub ki, Muhəmməd bin İbadə İmamdan soruşdu: Nə üçün Əmirəl-möminin Məmunun**

**dediyini təxirə salıb imtina etdin? İmam (ə.s) buyurdu: Bu işdə məqsədin**

**nədir? Əgər hökümətə əmr etməyin bizə qayıtmasını və bundan sənə hansısa xeyirin nəsib olacağını nəzərdə tutursansa, bu nəsib olmayacaq və sən başqaları kimi adi bir insan olacaqsan.**

**İmam Rza (ə.s) öz cavabında onu həqiqətlə tanış edib buyurur ki xəlifəlik əmri**

**tam şəkildə o Həzrətin öhdəsində qoyulmasa onu qəbul etməkdə heçbir xeyir yoxdur.**

**O şəxs suala belə cavabı eşitdikdə simasında pərişanlıq aşkar oldu.**

**Həzrət öz gedişatında xilafət və hökümət əmrində bəyan edir. Həzrətin yanında heçkim**

**başqasından üstün deyildir. Onun üçün qanun və ədalət insanlar arasında nə hökm edirsə ancaq o zəruri və mühümdür.**

## 10 İmam Rzanın(ə.s) şəxsiyyəti alimlər arasında

**İmam Rzanın (ə.s) İmam olması onun şəxsiyyətinin böyüklüyü barəsində kifayət edən amildir. Lakin bir sıra alimlərin və digər tanınmış şəxsiyyətlərin Həzrətin barəsində olan nəzərləri, ümumi fikirlərə əhəmiyyətli təsir qoyur.**

**Həzrətin düşmənlərindən sayılan Məmun Əbbasinin elm və bilik sahəsində yüksək məqamı olmuşdur. Məmun İmam Rza (ə.s) barəsində belə deyir: Mən yer üzündə bu kişidən (yəni İmam Rzadan (ə.s)) üstün bir nəfər tanımıram.**

**Digər tanınmış şəxsiyyətlərdən biri Cəmaləddin Əhməd bin Əli Nəssabə bin Ənbə deyir: Künyəsi Əbəl - Həsən olan İmam Rza (ə.s) öz zamanında Əbutalibin övladları arasında tayı olmayan bir şəxsiyyətdir.**

**Zəhəbinin Əhli-beytin (ə.s) müxaliflərindən olması məşhurdur. Həzrət Rza (ə.s) barəsində deyir: O, öz zamanında Bəni Haşim tayfasının başçısı və ən təmkinli və aqil şəxs idi.**

**Əbasəlt Hirəvi öz zamanının tanınmış şəxsi idi. O deyir: Bir şəxsi görmədim ki, Əli ibni Musa - Rzadan (ə.s) savadlı olsun. Həzrət görən hər bir alim mənim dediyim bu şəhadəti ona vermişdir.**

## 11 İmam Rzanın(ə.s) elmi

**Həzrət öz elmini cəddi Rəsulullahdan (s.ə.v.s) irs aparmışdır. Elm və fəzilətin qaynar**

**çeşmə idi ki, elm və mərifət teşnələri ondan feyz olub, öz çətinliklərini**

**həll edərərək bəhrə aparardılar.**

**Tarix Həzrətin islam düşmənlərinə qələbə çalançoxlu elmi və fikri münazirələrini**

**zikr edib.Ibrahim bin Əbbas Sulidən nəql olunubdur: Mən görmədim İmam Rzadan**

**(ə.s) bir sual oluna və Həzrət onu bilməyə. Ondan savadlı bir insangörmədim.**

## 12 Həzrətin zahiri davranış və rəftarı

**Şəkk yoxdur ki, məsum İmamlar (ə.s) dünya malına nisbətdə hərkəsdən zahid idi. O**

**Həzrət hamıdan çox zər-zivərdən uzaq olardı, lakin onların nəzərində zahidlik sadə**

**libas geyinmək və sadə yeməklə tamamlanmırdı. Zahidliyin böyük mənası**

**vardır. Həqiqətən zahid dünya ləzzətinin canına hakim olmasını rəva bilməyən kəsdir.**

**Rəvayətçi (Nəsru-durər) deyir: Xorasanda sufilərin bir dəstəsi İmam Rzanın**

**(ə.s) yanına gəldilər. Həzrətə dedilər: Əmirəl möminin Məmun Allah tərəfdən öhdəsinə qoyulan əmr barəsində fikirləşdi, anladı ki siz Əhlibeyt ümmətin İmamı olmaq üçün insanların hamısındanüstünsüz və sonra Əhlibeytə nəzər saldı. Gördü ki, sən onların hamısından üstünsən və xilafətlik əmrini sənə qaytardı. İndi ümmət bir**

**rəhbərə ehtiyacı var ki, libasları, yeməyi sadə və miniyi də ulaq olsun.**

**Rəvayətçi ardınca deyir: İmam (ə.s)söykənmişdi. Bu zaman**

**düz oturub buyurdu: Yusifin (ə.s) Peyğəmbərlik rütbəsi var idi. Amma əbası ipəkdən,**

**düymələri qızıldan olan paltar geyinərdi.Fironun məclisində yanlarında otururardı. Vay**

**olsun sizə! Siz İmamdan ədalətdən başqa nə istəyirsiz ki, əgər hökm etsə hökmü**

**adilanə olarvə əgər vədə versə vədəsini yerinə yetirər.**

## 13 Həzrət Rzanın (ə.s) öz şəhadətindən və dəfn olunduğu məkandan xəbərdar olması

**Həzrət dəfələrlə öz şəhadətinin Məmunun vasitəsi iləolduğunu xəbər vermişdir.**

**Bəzən buyururdu: Mən bir səfərə-Xorasana- gedəcəyəm. O səfərdən qayıtmayacam.**

**Məmun İmamı öz vəliəhdi təyin etməsi üçün müqəddəs Mədinə şəhərindən Xorasana**

**gətizdirdi.**

**Ravi deyir:Məmun Həzrət vəliəhdlik (namizədlik) üçün Mədinədən Xorasana çağırdıqda, İmam Rəsulullah (s.ə.v.a.s) ilə vidalaşmaq üçün Peyğəmbər məscidinə gəldi və uca səslə ağladı. Həzrətə salam verib və canişinliyini təbrik etdim. Mənə buyurdu: Məni cəddim Rəsulullahın**

**(s.ə.v.a.s) yanından ayırırlar, mən qürbətdə öləcəyəm və məni Harunun yanında dəfn edəcəklər.**

**İmam bu səbəbdən Mədinədən çıxan zaman insanlardan istədi ki, onun üçün ağlasınlar.**

**Məmun zahirdə Həzrət Rzaya (ə.s) diqqət göstərirdi. Həzrət Əlini (ə.s) məclislərdə müdafiə edərdi. Həzrət Rza (ə.s) öz dostlarına buyurardı: Məmun öz sözləri ilə sizi aldatmasın. Allaha and olsun ki, məni ondan başqa bir kəs öldürməyəcəkdir.**

**Başqa bir yerdə ravi deyir: Gördüm ki, Harun-Abbasi xəlifəsi- Məscidul-həramın bir**

**qapısından çölə çıxdı, Həzrət Rza (ə.s)isə başqa bir qapıdan çıxdı və Həzrət**

**buyurdu:**

**Mənim evim sənin evindən uzaqdır amma mənim görüşüm səninlə yaxındır, buna Tus**

**şəhəri səbəb olacaq. Bilirdik ki, İmamın qəbri Harunun yanında olacaq.**

**Bəzən Mədinə məscidində Harun söhbət edən zaman Həzrət buyururdu:**

**Mənim onunla bir otaqda dəfn olunmağımı görəcəksiniz.**

**Həmçinin bəzi vaxtlar buyurardı: Mən və Harun bu iki barmaq kimi bir - birimizə yaxın olarıq deyib, barmağına işarə edərdi. Ravi deyir: Həzrət onun yanında dəfn olandan sonra, Həzrətin nə demək istədiyini anladım. Bildiyimiz kimi Harunun qəbiri Həzrət Rzanın (ə.s) yanındadır.**

## 2 Doğum tarixi

**Tarixçilər və hədis yazanlar o Həzrətin doğumunun 148-ci h.q. tarixi ilə zilqədə ayının 11-ə yazıblar və bu İmam Sadiqin (ə.s) dünyadan köçdüyü tarixdir. Amma bəzi tarixçilər o Həzrətin doğumunun İmam Sadiqin (ə.s) vəfatından beş il sonra yazıblar.**

**O Həzrətin anası onu dünyaya gətirəndən sonra Tahirə - Pakizə adı almışdır.**

**O xanım çox iffətli, düşüncəli və şərəfli əcəm (qeyri ərəb) ailəsindən olmuşdur. Bir hədisdə deyilir:**

**Həzrətin anası Tuktəm xanım dedi: Mənim üçün dayə tutun. (İmama süd verməkdə kömək etsin)**

**Soruşdular: Süd azdır? Dedi: Xeyr! Həzrətin doğumundan sonra müstəhəbb zikr edib, namaz qıla bilmirəm.**

## 3 İmam Rza (ə.s) insanlarla gözəl əxlaq və ədəblə davranışı

**Nəql olunub ki, İmam Rza (ə.s) camaatın yanına gedən zaman özünü səliqəyə salıb gedərdi və camaatın içinə çıxanda özünə ətir vurardı. İnsanlarla danışanda heç kəsi sözü ilə narahat etməzdi. Hətta heç kəsin sözünü kəsməzdi və öz sözün tamamlayardı. Həmçinin bacardığı qədər kimsənin istəyini rədd etməzdi. O Həzrət heç vaxt qəh-qəhə çəkib gülməzdi, həmişə Həzrət təbəssümlə gülərdi.**

**İmam Rza (ə.s) insanlara çox kömək edərdi, sədəqə verərdi və bu işləri çox zaman gecə qaranlığında yerinə yetirərdi.**

**Həzrət çox təvazökar idi. Hədisdə buyurulur: Bir gün Həzrət hamamda olarkən bir kişi ona dedi: Mənə kisə çək! Həzrət başladı ona kisə çəkməyə. Camaat ona Həzrəti tanıtdırdılar və o çox xəcalət çəkib üzr istədi. Amma Həzrət onun ürəyini ala-ala ona kisə çəkməyi davam etdi.Həmçinin İmam Rza (ə.s) öz qonaqlarına çox ehtiram bəsləyərdi. Başqa bir hədisdə nəql olunub: Bir gün Həzrətin yanına bir qonaq gəlir və gecəyə qədər Həzrətin yanında qalır. Bu zaman evin işığı xarab olur və o kişi işığı düzəltmək istəyəndə**

**Həzrət onu qoymadı. Özü işığı düzəldib buyurdu: Biz heç vaxt qonağımızı işlətmərik.**

## 4 Həzrətin ömür müddəti

**Məşhur tarixlərə əsasən Həzrətin mübarək ömrü 55 il olub və Həzrətin şəhadət tarixi 203-ci h.q. ilinin səfər ayının axırı nəql olunub.Həzrətin qatili məşhur rəvayətlərə görə Məmun Abbasidir.**

**İmamın pak məzarı dünyada şöhrət tapan müqəddəs Məşhəd şəhərindədir.**

## 5Həzrət Rzanın (ə.s) cavanlıqda dini mərcəiyyəti

**Cavanlıqda Həzrət yüksək elmi dərəcəyə malik idi. Camaat o Həzrətə müraciət edib məsələləri soruşardılar. Həzrət Kazım (ə.s) camaatı ona istiqamətləndirib buyurardı: Bu oğlumun yazdığı mənim yazdığımdır, onun sözü mənim sözümdür, onun göndərdiyi mənim göndərdiyimdir və nə desə haqdır.**

**Bir gün bir şəxs Həzrət Kazıma (ə.s) dedi: Sualım var. Həzrət buyurdu: Öz İmamından soruş. Soruşdu: Məqsədin kimdir?Mən sizdən başqa bir İmam**

**tanımıram!Həzrət buyurdu: O, övladım Əlidir, mən öz künyəm -Əbul-Həsəni ona bağışladım.Alim ibn Həcər deyir: Həzrət Rza (ə.s) iyirmi yaşı olarkən Peyğəmbər (s) məscidində fətva verərdi.**

**Zəhəbi - alimlərdən biri- deyir: Həzrət Rza (ə.s) Malik bin Ənəsin (əhli sunnənin dörd alimlərindən biri) vaxtında cavan olmağına baxmayaraq fətva verərmiş.**

## 6Həzrətin uşaqlıq və cavanlıq dövrü

**Tarix Məsum İmamların uşaqlıq dövrünün xüsusiyyətləri barəsində susaraq çox məlumat verməyib. Çünki tarixçilər tarix səhnəsində səs-küyə səbəb olan hadisələri və insanlar arasında**

**çox fərqlənmək istəyən şəxsləri axtarırlar. Məsum İmamlar şan-şöhrət qarşısında iddiasız olan, yaşadıqları cəmiyyətdə sadə insanlardan fərqlənməyən ən ali şəxslər olmuşlar. Hökumət hər zaman onları məhrum vəziyyətdə saxlayaraq, insanların onlarla əlaqəsinə çətinlik yaradıb. Həmçinin o zamanın bir sıra İslam alimləri məzhəbi ixtilafları olduğu üçün İmamları insanların gözündə**

**kiçiltmək, sözlərini dəyərsiz etmək üçün hər vasitədən istifadə etmişlər. Belə insanlar gələcək nəsillərin Məsum İmamların İmamətdən əvvəlki və sonrakı həyatı haqqında məlumatları əldə etmələrinə mane olmuşlar.**

**Tarixdə qeyd olunub ki, İmam Rzaya (ə.s) uşaqlıqdan atasının məhəbbəti çox olub. Musa bin Cəfərin (ə.s) dostlarından biri Mufəzzəl adlı şəxs deyir: Həzrətin yanına getdim. Gördüm övladı Əli onun qucağındadır. Həzrət onu öpərdi və dilini sovurardı. Onu öz çiyninə qoyardı və özünə sıxıb buyurardı: Atam sənə qurban! Nə gözəl ətrin var. Nə pakizə xilqətin var. Sənin fəzilətin aşkardır.**

**Dedim: Fəda olum sənə, ürəyimdə bu uşağa qarşı bir məhəbbət oyandı ki, səndən başqa heç kiməbu məhəbbət oyanmamışdır.**

**Həzrət buyurdu: Ey Müfəzzəl! Onun mənimlə olan nisbəti mənim atama olan nisbətim kimidir.**

**Dedim: Sizdən sonra Allahın İmamət əmrinə o sahibdir? Buyurdu: Bəli! Hər kim ona itaət etsə haqqa çatmışdır. Hər kim itaət etməsə kafir olar.**

**7 Həzrətin səxavət və kəraməti**

**Həzrət öz dövründə səxavət və xeyirxahlıqda yeganə şəxs idi. Ərəfə günündə öz mal-dövlətinin hamısını yoxsullara bağışladı. Fəzl bin Səhl dedi: Bu zərər və xəsarətdir. Həzrət buyurdu: Bir şeylə ki, böyüklük və mükafat əldə edirsən heç vaxt onu ziyan sayma. Bir gün bir kişi Həzrətə dedi: Öz mürüvvətin qədər mənə əta et. Həzrət buyurdu: Eliyə bilmərəm.Kişi dedi: Mənim mürüvvətim qədər mənə əta et. Həzrət buyurdu: Bunu eliyə bilərəm. Sonra əmr etdi ki ona iki yüz dinar versinlər.**

**İslam dinində çox təkid olunmuş işlərdən biri də, möhtacların ehtiyacını, xüsusən dilədikləri zaman təmin etmək məsələsidir.**

**Möhtaclara xidmət, Quran ayələrində və məsumların buyurduqlarında təkid olunmuş və bu işin fəzilətinə və tərzinə işarə edilmişdir.**

**İmam Rzanın (ə.s) həyatına qısa baxış insanı bu həqiqət ilə tanış edir. Həzrətin möhtaclara xüsusi xidmət və köməyi var idi.**

**Muəmmər bin Xəllad deyir: Həzrət Rza (ə.s) yemək yeməyə başlayanda bir qab süfrənin kənarına qoyub, yaxşı yeməklərdən ayırardı və əmr edərdi ki, bunları fəqirlərə versinlər.**

## 8 Həzrətin dözümlü və səbirli olması

**Həzrətin dözümlu və səbirli olması Məmunun xəlifəlik dövründə onun gizli və xəyanətli siyasətinin qarşısında, vəliəhdlik zorla boynuna qoyulandan sonra aşkar oldu.**

**Hədis rəvayətçisinin xadimi Yasir deyir: Cümə günü Həzrət məsciddən qayıdan zaman, tər-qan Həzrəti götürmüşdü. Əllərini göyə qaldırıb dedi: İlahi əgər mənim azadlıq və fərəcim ölümdədirsə onda tez yetir, elə bu saat.**

**Bu rəvayətdən məlum olur ki, İmam Rzanın (ə.s) vəliəhdliyi dövründə, Məmun və onun təşkilatının siyasətindən Həzrət nə qədər əzabda olub. Bu kimi acı**

**və narahatedici davranış müqabilində Həzrət səbr və dözümlə Allahın əmrinə itaət edirdi.**

## 9İmamın ədaləti

**Nəql olunub ki, Muhəmməd bin İbadə İmamdan soruşdu: Nə üçün Əmirəl-möminin Məmunun dediyini təxirə salıb imtina etdin? İmam (ə.s) buyurdu: Bu işdə məqsədin nədir? Əgər hökümətə əmr etməyin bizə qayıtmasını və bundan sənə hansısa xeyirin nəsib olacağını nəzərdə tutursansa, bu nəsib olmayacaq və sən başqaları kimi adi bir insan olacaqsan.**

**İmam Rza (ə.s) öz cavabında onu həqiqətlə tanış edib buyurur ki xəlifəlik əmri tam şəkildə o Həzrətin öhdəsində qoyulmasa onu qəbul etməkdə heç bir xeyir yoxdur.**

**O şəxs suala belə cavabı eşitdikdə simasında pərişanlıq aşkar oldu.**

**Həzrət öz gedişatında xilafət və hökümət əmrin də bəyan edir. Həzrətin yanında heç kim başqasından üstün deyildir. Onun üçün qanun və ədalət insanlar arasında nə hökm edirsə ancaq o zəruri və mühümdür.**

## 10 İmam Rzanın(ə.s) şəxsiyyəti alimlər arasında

**İmam Rzanın (ə.s) İmam olması onun şəxsiyyətinin böyüklüyü barəsində kifayət edən amildir. Lakin bir sıra alimlərin və digər tanınmış şəxsiyyətlərin Həzrətin barəsində olan nəzərləri, ümumi fikirlərə əhəmiyyətli təsir qoyur.**

**Həzrətin düşmənlərindən sayılan Məmun Əbbasinin elm və bilik sahəsində yüksək məqamı olmuşdur. Məmun İmam Rza (ə.s) barəsində belə deyir:**

**Mən yer üzündə bu kişidən (yəni İmam Rzadan (ə.s)) üstün bir nəfər tanımıram.**

**Digər tanınmış şəxsiyyətlərdən biri Cəmaləddin Əhməd bin Əli Nəssabə bin Ənbə deyir: Künyəsi Əbəl - Həsən olan İmam Rza (ə.s) öz zamanında Əbutalibin övladları arasında tayı olmayan bir şəxsiyyətdir.**

**Zəhəbinin Əhli-beytin (ə.s) müxaliflərindən olması məşhurdur. Həzrət Rza (ə.s) barəsində deyir: O, öz zamanında Bəni Haşim tayfasının başçısı və ən təmkinli və aqil şəxs idi.**

**Əbasəlt Hirəvi öz zamanının tanınmış şəxsi idi. O deyir: Bir şəxsi görmədim ki, Əli ibni Musa - Rzadan (ə.s) savadlı olsun. Həzrət görən hər bir alim mənim dediyim bu şəhadəti ona vermişdir.**

## 11 İmam Rzanın(ə.s) elmi

**Həzrət öz elmini cəddi Rəsulullahdan (s.ə.v.s) irs aparmışdır. Elm və fəzilətin qaynar çeşmə idi ki, elm və mərifət teşnələri ondan feyz olub, öz çətinliklərini həll edərərək bəhrə aparardılar.**

**Tarix Həzrətin islam düşmənlərinə qələbə çalan çoxlu elmi və fikri münazirələrini zikr edib. Ibrahim bin Əbbas Sulidən nəql olunubdur: Mən görmədim İmam Rzadan (ə.s) bir sual oluna və Həzrət onu bilməyə. Ondan savadlı bir insan görmədim.**

## 12 Həzrətin zahiri davranış və rəftarı

Şəkk yoxdur ki, məsum İmamlar (ə.s) dünya malına nisbətdə hər kəsdən zahid idi. O Həzrət hamıdan çox zər-zivərdən uzaq olardı, lakin onların nəzərində zahidlik sadə libas geyinmək və sadə yeməklə tamamlanmırdı. Zahidliyin böyük mənası vardır. Həqiqətən zahid dünya ləzzətinin canına hakim olmasını rəva bilməyən kəsdir.

Rəvayətçi (Nəsru-durər) deyir: Xorasanda sufilərin bir dəstəsi İmam Rzanın (ə.s) yanına gəldilər. Həzrətə dedilər: Əmirəl möminin Məmun Allah tərəfdən öhdəsinə qoyulan əmr barəsində fikirləşdi, anladı ki siz Əhlibeyt ümmətin İmamı olmaq üçün

insanların hamısından üstünsüz və sonra Əhlibeytə nəzər saldı.

Gördü ki, sən onların hamısından üstünsən və xilafətlik əmrini sənə qaytardı. İndi ümmət bir rəhbərə ehtiyacı var ki, libasları, yeməyi sadə və miniyi də ulaq olsun.

Rəvayətçi ardınca deyir: İmam (ə.s) söykənmişdi. Bu zaman düz oturub buyurdu: Yusifin (ə.s) Peyğəmbərlik rütbəsi var idi. Amma əbası ipəkdən, düymələri qızıldan olan paltar geyinərdi. Fironun məclisində yanlarında oturardı. Vay olsun sizə! Siz İmamdan ədalətdən başqa nə istəyirsiz ki, əgər hökm etsə hökmü adilanə olar və əgər vədə versə vədəsini yerinə yetirər.

## 13 Həzrət Rzanın (ə.s) öz şəhadətindən və dəfn olunduğu məkandan xəbərdarolması

**Həzrət dəfələrlə öz şəhadətinin Məmunun vasitəsi ilə olduğunu xəbər vermişdir.**

**Bəzən buyururdu: Mən bir səfərə-Xorasana-gedəcəyəm. O səfərdən qayıtmayacam.**

**Məmun İmamı öz vəliəhdi təyin etməsi üçün müqəddəs Mədinə şəhərindən Xorasana gətizdirdi.**

**Ravi deyir: Məmun Həzrət vəliəhdlik (namizədlik) üçün Mədinədən Xorasana çağırdıqda, İmam Rəsulullah (s.ə.v.a.s) ilə vidalaşmaq üçün Peyğəmbər məscidinə gəldi və uca səslə ağladı. Həzrətə salam**

**verib və canişinliyini təbrik etdim. Mənə buyurdu: Məni cəddim Rəsulullahın (s.ə.v.a.s) yanından ayırırlar, mən qürbətdə öləcəyəm və məni Harunun yanında dəfn edəcəklər.**

**İmam bu səbəbdən Mədinədən çıxan zaman insanlardan istədi ki, onun üçün ağlasınlar.**

**Məmun zahirdə Həzrət Rzaya (ə.s) diqqət göstərirdi. Həzrət Əlini (ə.s) məclislərdə müdafiə edərdi. Həzrət Rza (ə.s) öz dostlarına buyurardı: Məmun öz sözləri ilə sizi aldatmasın. Allaha and olsun ki, məni ondan başqa bir kəs öldürməyəcəkdir.**

**Başqa bir yerdə ravi deyir: Gördüm ki, Harun-Abbasi xəlifəsi- Məscidul-həramın bir qapısından çölə çıxdı, Həzrət Rza (ə.s) isə başqa bir qapıdan çıxdı və**

**Həzrət buyurdu:Mənim evim sənin evindən uzaqdır amma mənim görüşüm səninlə yaxındır, buna Tus şəhəri səbəb olacaq. Bilirdik ki, İmamın qəbri Harunun yanında olacaq.**

**Bəzən Mədinə məscidində Harun söhbət edən zaman Həzrət buyururdu:Mənim onunla bir otaqda dəfn olunmağımı görəcəksiniz.**

**Həmçinin bəzi vaxtlar buyurardı: Mən və Harun bu iki barmaq kimi bir - birimizə yaxın olarıq deyib, barmağına işarə edərdi. Ravi deyir: Həzrət onun yanında dəfn olandan sonra, Həzrətin nə demək istədiyini anladım. Bildiyimiz kimi Harunun qəbiri Həzrət Rzanın (ə.s) yanındadır.**